**AZƏRBAYCAN RESPUBLİKASININ**
**SƏHİYYƏ NAZİRİ**

# Ə M R

№ 82

**Bakı şəhəri** "21" oktyabr 2010 **il**

**"Elektron Azərbaycan" Dövlət Proqramının və "Elektron hökumət"in formalaşdırılması üzrə Fəaliyyət Proqramı"nın icrası barədə"**

Azərbaycan Respublikası Prezidentinin 11 avqust 2010-cu il tarixli 1056 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı"nın (Elektron Azərbaycan)" və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 may 2010-cu il tarixli 136s nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2010-2011-ci illərdə "Elektron hökumət"in formalaşdırılması üzrə Fəaliyyət Proqramı"nın icrası məqsədilə:

## ƏMR EDİRƏM:

1. "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı"nın (Elektron Azərbaycan)" və "Azərbaycan Respublikasında 2010-2011-ci illərdə "Elektron hökumət"in formalaşdırılması üzrə Fəaliyyət Proqramı"nın icrasına dair Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).

2. Səhiyyə Nazirliyinin tibb idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın ki, bu əmrlə təsdiq edilmiş tədbirlər planının icrası öz səlahiyyətləri daxilində təmin edilsin.

3. Maliyyə-iqtisadiyyat şöbəsinin müdiri A.Vəliyevə tapşırılsın ki, bu əmrlə təsdiq edilmiş tədbirlər planının maliyyələşdirilməsi ilə bağlı müvafiq tədbirlər həyata keçirilsin.

4. Əmrin icrasına nəzarət Nazir müavini Abbas Vəlibəyova həvalə olunsun.

**Oqtay Şirəliyev**

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyinin
"21" oktyabr 2010-cu il tarixli
82 nömrəli əmri ilə təsdiq edilmişdir

**"Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı"nın (Elektron Azərbaycan)" və «Azərbaycan Respublikasında 2010-2011-ci illərdə «Elektron hökumət»in formalaşdırılması üzrə Fəaliyyət Proqramı»nın icrasına dair Azərbaycan Respublikası Nazirliyinin**

# TƏDBİRLƏR PLANI

a) "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı"nın 7.2.3.5. bəndi - Vətəndaşların "Elektron sağlamlıq kartı" sisteminin inkişaf etdirilməsi.

| Sıra | Tədbirlərin adı | Tədbirlərin məqsədi | Məsul icraçılar | İcra müddət |
|---|---|---|---|---|
| 1. | Vətəndaşların Elektron Sağlamlıq Kartı Sisteminin (VESKS) ikinci mərhələsinin tətbiqi:<br>-proqram təminatının təkmilləşdirilməsi<br>-tibb müəssisələrin kompüter avadanlığı ilə təmin edilməsi<br>-kadrların hazırlığı üçün təlimlərin keçirilməsi | Respublikanın digər əhali qruplarına müayinə-müalicə xidmətləri göstərən tibb müəssisələrinin mərhələlərlə sistemə qoşulması. Sağlamlıq kartı sisteminin tətbiqi müvafiq elektron registrin hazırlanması vasitəsilə vətəndaşların sağlamlıq vəziyyəti üzərində nəzarət sisteminin təkmilləşdirilməsini, düzgün məlumat almaq məqsədilə Səhiyyə Nazirliyi tərəfindən yaradılır və operativ şəkildə şəxslərin sağlamlığı barədə məlumat bankının yaradılmasını təmin edir. | Tibbi Yardımın Təşkili Şöbəsi(TYTŞ), Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzi(SİM), Bakı şəhəri Baş Səhiyyə İdarəsi (BŞBSİ), şəhər və rayonların mərkəzi xəstəxanaları (RMX) | 2011-2012 |
| 2. | "Yeniyetmələrin dispanserizasiyası" altsisteminin hazırlanması və tətbiqi | Yeniyetmələrin sağlamlıq vəziyyətini xarakterizə edən göstəricilərin dəqiq təhlil edilməsi, yeniyetmələrin orqanizmində baş verən patoloji dəyişikliklərin vaxtında aşkar edilməsi, müalicə-profilaktika və sağlamlaşdırıcı tədbirlərin keyfiyyətinin və səviyyəsini yüksəldilməsi<br>Əsas: Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 26 may 2010-cu il tarixli 36 №-li Əmri. | TYTŞ, SİM, BŞBSİ, aidiyyati tibb idarə və müəssisələri | 2010-2011 |

| | | | | |
|---|---|---|---|---|
| 3. | Vərəm xəstələrinin vahid elektron registrinin və məlumat bazasının tətbiqi | Vərəmlə mübarizə tətbirlərinin gücləndirilməsi.<br>Əsas: Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 21sentyabr 2010-cu il tarixli 72 №-li Əmri. | TYTŞ, SİM | 2010-2011 |
| 4. | «Yoluxucu xəstəliklərin elektron müşahidə sistemi» ilə inteqrasiya | Səhiyyə Nazirliyində yoluxucu xəstəliklər üzrə məlumatların toplanma, ötürülmə, analiz və işlənmə prosesinin təkmilləşdirilməsi və epidemioloji nəzarətin gücləndirilməsi<br>Əsas: Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 26 fevral 2010-cu il tarixli 16№ -li Əmri | Respublika Gigiyena və Epidemiologiya Mərkəzi(RGEM), Respublika Taun Əleyhinə stansiyaya(RTƏS), SİM | 2011-2012 |
| 5. | "İmtiyazlı aptek" altsisteminin hazırlanması və tətbiqi | İmtiyazlı əhali qrupuna daxil olan vətəndaşların dərman təchizatının təkmilləşdirilməsi. | Dərman Vasitələrini Analitik Ekspertiza Mərkəzi(DVAEM) ,İnnovasiya və Təchizat Mərkəzi(İTM), SİM | 2010-2011 |
| 6. | "Qan bankı" altsisteminin hazırlanması və tətbiqi | Qan və qan komponentlərinin eytiyyatlarının tədarükü və istifadəsinin təkmilləşdirilməsi. | TYTŞ, SİM | 2010-2011 |
| 7. | Ədliyyə Nazirliyinin informasiya sistemi ilə inteqrasiya | Doğum haqqında məlumat(bir qayda olaraq, uşağın doğum tarixi və cinsi, ananın soyadı, adı, atasının adı, yaşayış yeri, şəxsiyyət vəsiqəsinin nömrəsi və verilmə tarixi) tibb müəssisəsi tərəfindən dərhal Azərbaycan Respublikası Səhiyyə Nazirliyinə, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən isə Ədliyyə Nazirliyinin informasiya sisteminə və oradan da avtomatlaşdırılmış rejimdə ananın yaşayış yeri üzrə qeydiyyat şöbəsinə ötürülməsi.<br>Əsas: Nazirlər Kabinetinin 14 iyul 2010-cu il tarixli 134 №-li Qərarı. | TYTŞ, SİM | 2011 |
| 8. | Daxili İşlər Nazirliyinin informasiya sistemi ilə inteqrasiya | Elektron sağlamlıq kartında olan passport və şəxsiyyət vəsiqələrinin doldurulmasına aid məlumatlar "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminə daxil edilməsi".<br>Əsas: Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 iyul 2008-ci il tarixli 150 №-li Qərarının 4-cü bəndi. | TYTŞ, SİM | 2011-2012 |

| | | | | |
|---|---|---|---|---|
| 9. | "Stasionardan çıxanın statistik kartası (№ AZS-066)" altsisteminin hazırlanması və pilot tətbiqi. | Stasionar tibbi yardım göstərən müəssisələrin xərclərinin və xərc strukturunun təhlil olunması, hər bir xəstələnmə halı üzrə xərclərin hesablanması məqsədilə məlumat bankının yaradılması.<br>Əsas: Səhiyyə Nazirliyinin 03 avqust 2009-cu il tarixli 127-S №-li sərəncamı | TYTŞ, SİM, BŞBSİ | 2011 |
| 10. | "Təcili və Təxirəsalınmaz Tibbi Yardım" altsisteminin texniki tapşırığının, proqram təminatının hazırlanması, avadanlıqların alınması, qurulması, təlimlərin keçirilməsi və pilot tətbiq | Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyalarının məntəqələrində və avtomobillərində təcili çağırış zamanı vətəndaşın "Elektron sağlamlıq kartı" vasitəsi ilə tibbi məlumatların operativ əldə edilməsi. | TYTŞ, SİM, Bakı Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyası(BTTTYS) | 2011-2012 |
| 11. | "Digər tibbi informasiya sistemləri ilə məlumat mübadiləsi" altsisteminin hazırlanması | Respublikada istifadə olunan digər tibbi informasiya sistemləri ilə məlumat mübadiləsinin təmin edilməsi. | SİM | 2011 |
| 12. | "Elektron resept" altsistemi texniki tapşırığının hazırlanması. | Reseptlərin elektron sağlamlıq kartları vasitəsi ilə elektron şəkildə yazılması və oxunması. Dərman vasitələrinin istifadəsinə nəzarətin gücləndirilməsi. | TYTŞ, DVAEM, SİM, BŞBSİ | 2012 |
| 13. | "SMS xəbərdarlıq" altsisteminin hazırlanması və tətbiqi. | Vətəndaşların profilaktik müayinə və peyvənd tarixləri haqqında xəbərdarlıq edilməsi. | SİM | 2011 |
| 14. | "İcbari tibbi sığorta" altsistemi texniki tapşırığının hazırlanması. | Elektron Sağlamlıq Kartlarında və sistemdə icbari tibbi sığorta məlumatlarının toplanması və icbari tibbi sığorta agentliyi informasiya sistemləri ilə inteqrasiya edilməsi. | TYTŞ, SİM, aidiyyəti qurumlar | 2012 |
| 15. | Texniki dəstək və smartkartların alınması | Hazırlanmış və tətbiq olunmuş bütün sistemlərin və altsistemlərin işinin fasiləsiz təmin olunması | SİM | 2011-2012 |

b) "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı"nın 7.2.3.6. bəndi - Nümunəvi tibbi-informasiya sisteminin dövlət səhiyyə müəssisələrində mərhələlərlə tətbiqi.

| Sıra | Tədbirlərin adı | Tədbirlərin məqsədi | Məsul icarçılar | İcra müddəti |
|---|---|---|---|---|
| 1. | 10 dövlət tibb müəssisəsində İT infrastrukturun yaradılması, Nümunəvi Tibbi-İnformasiya Sistemini (NTİS) tətbiqi | Respublikanın dövlət tibb müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi<br>1)Prof.Ə.F.Qarayev adına 2 saylı uşaq kliniki xəstəxanası<br>2)Respublika uşaq klinik xəstəxanası<br>3)Respublika neyrocərrahlıq xəstəxanası<br>4)M.Ə.Əfəndiyev adına 2 nömrəli Bakı şəhər klinik Xəstəxanası<br>5)28 nömrəli Birləşmiş şəhər xəstəxanası<br>6) 3 saylı şəhər xəstəxanası<br>7)1 nömrəli uşaq yoluxucu xəstəlikləri xəstəxanası<br>8)Uşaq kliniki nevroloji xəstəxanası<br>9)26 nömrəli Birləşmiş şəhər xəstəxanası<br>10)Ə.D.Məlikov adına 6 nömrəli Birləşmiş şəhər xəstəxanası | SİM, Tikilməkdə olan müəssisələrin müdiriyyəti (TMM), aidiyyati qurumlar | 2011-2012 |
| 2. | NTİS-in VESKS-i ilə inteqrasiyası | NTİS-də qeydiyyata alınan tibbi məlumatların VESKS-də istifadə olunması və statistik hesabatlarda əks olunması | SİM | 2011 |
| 3. | Texniki dəstək | Hazırlanmış və tətbiq olunmuş bütün sistemlərin və altsistemlərin işinin fasiləsiz təmin olunması | SİM | 2011-2012 |

c) «Azərbaycan Respublikasında 2010-2011-ci illərdə «Elektron hökumət»in formalaşdırılması üzrə Fəaliyyət Proqramı»
4.2 bəndi - Dövlət orqanlarında hazırlanmış inzibati reqlamentlərə uyğun e-xidmetlərin həyata keçirilməsi.

| Sıra | Tədbirlərin adı | Tədbirlərin məqsədi | Məsul icarçılar | İcra müddəti |
|---|---|---|---|---|
| 1. | "e-Səhiyyə" portalının inkişaf etdirməsi | - Vətəndaşların elektron sağlamlıq kartındakı məlumatlarının əldə etmək imkanın yaradılması (peyvəndlər , müayinə, aşkar olunmuş xəstəliklər).<br>- Obliqat qruplara aid vətəndaşların müayinələrdən keçmək barədə məlumatlarının əldə etmək imkanın yaradılması.<br>- Müəssisə rəhbərlərinin obliqat qrupuna daxil olan işçilərinə elektron nəzarət xidməti | SİM, RGEM | 2011 |
| 2. | Qəbula elektron qeydiyyat sisteminin yaradılması. | Səhiyyə Nazirliyinin rəsmi şəxslərinin iş grafikinə uyğun qəbul günləri nəzərə alınmaqla, elektron ərizə vasitəsi ilə qəbula yazılma. | Ümumi Şöbə(ÜŞ), SİM | 2011 |
| 3. | Xüsusi razılıq(lisenziya) üçün elektron ərizə sisteminin yaradılması. | Tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmaq üçün xüsusi razılığım (lisenziya) alınması üçün elektron ərizələrin qəbulu. | TYTŞ, SİM | 2011 |
| 4. | İşə qəbul üçün elektron ərizələrin qəbulu sisteminin yaradılması. | Səhiyyə Nazirliyinin tabəçiliyində olan tibb müəssisələrində ali və orta tibb işçilərinin işə qəbul ilə bağlı keçiriləcək müsabiqədə iştirak etmək üçün elektron ərizələrin qəbulu. | Kadr Elm və Təhsil Şöbəsi (KETŞ), SİM | 2011 |
| 5. | Dərman vasitələri haqqında elektron məlumat xidmətinin inkişaf etdirilməsi. | Səhiyyə Nazirliyi tərəfindən rəsmi qeydiyyatdan keçmiş dərmanlar haqqında məlumatların əhaliyə çatdırılması. | DVAEM, SİM | 2011 |
| 6. | Tibb müəssisələri barədə elektron məlumat soraqçasının təkmilləşdirilməsi. | Respublika üzrə tibb müəssisələri haqqında ətraflı məlumatın (ünvan, telefon, profil, iş rejimi və s.) əhaliyə çatdırılması. | KETŞ, SİM | 2011 |
| 7. | "e-Qeydiyyat" xidmətinin hazırlanması və pilot tətbiqi | Ambulator tibb müəssisələrində evə çağırış və ya həkim qəbuluna elektron qeydiyyat. | TYTŞ, BBSİ, SİM | 2011 |